*** İftixar**

## Ucal ucaldıqca!

**And içib kitaba, öpüb bayrağı
Sonsuz zirvələrə ucalan İnsan!
Sənin gəlişinlə doğdu al səhər...
Ən yeni bir tarix başladı cahan!**

**Vətən torpağına nur kimi saçdın!
Sənin işığına büründü millət!
Tarixdə Sən yeni səhifə açdın!
Yenidən parladı qurulmuş dövlət!..**

**Qürurun, vüqarın, möhtəşəmliyin,
Xalqın şərəfinə şöhrət gətirdi!
Ulu öndərimiz Heydərdən sonra
Səni bu millətə Tanrı yetirdi!**

**Tanrıdan aldığın nurla, işıqla
Hər yandan göründü Sənin qüdrətin!
Cahanda hamını heyran qoyubdur
İncə ilmələnən mərd siyasətin!**

**Bütün kainatı gəzdi sorağın,
Şöhrətin ən uca zirvəyə çatdı!
Göylərə yüksələn uca bayrağın
Bizdə gələcəyə inam yaratdı!**

**Sənin təfəkkürün, ağlın, idrakın
Dostu sevindirdi, düşməni kəsdi!
Məğrur addımların sonsuz qürurla
Xoş günə can atdı, sülhə tələsdi!**

**Ucal, ucaldıqca biz də ucalaq!
Millətlər içində izimiz qalsın!
Heydər Əliyevin bəxş elədiyi
Sönməz İlhamını xalq Səndən alsın!**

## Könüllərə dolan nur

Möhtərəm prezidentim!
Ali Baş Komandanım!
Cənab İlham Əliyev!
Sən nurlu insanların
Ziyasından yoğruldun!...
Tanrısından güc alan,
And yerinə ucalan,
Mənalı həyat görən,
Alnı açıq, üzü ağ,
Şərəfli ömür sürən,
Fenomenə çevrilən,
Sevildikcə sevilən
Cüt qaynayan bulağın
Şirin zümzüməsindən!...
Qoşa yüksələn dağın
Məğrur əzəmətindən!...
Həqiqət hikmətindən!...
Hər əzaba qatlaşan,
Keçilməz sədlər aşan,
Zülməti yarıb keçən
İşıqlı duyğuların
Parlaq şölələrinin
Şanlı təntənəsindən!...
Möhtəşəm sədaqətin,
Əl ülvi məhəbbətin
Təmiz, saf niyyətindən!...
Azərbaycan himninin
Tökülən qanı kəsən
Qurtuluş məşəlinin
Azadlıq yolu gedən,
Səadətlər bəxş edən
Üç rəngli bayrağının
Cahan boyu boy atan
Məhəbbət Günəşinin
Parlaq şölələrindən!...
Ən müqəddəs hisslərin
Ali meyarlarının
Əfsanəvi bətnindən,
İşığından doğuldun!...
Doğma vətənimizin,
Şərəfli xalqımızın,
Əziz millətimizin
Gələcəyə yollanan
Keşməkeşli yolunda
Təpədən dırnağadək
Sən parlaq bir nur oldun!
Sevgi, məhəbbət ilə
Ürəklərə, qəlblərə
Sən könüllərə doldun!

**Bakı**